BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 ***Humanitar elmlər seriyası*** ***2015***

UOT 94 (478)

XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA DİPLOMATİYASI

A.M.MƏMMƏDOVA
Bakı Dövlət Universiteti
16aynurm@rambler.ru

Məqalədə XIX əsrin əvvəllərində beynəlxalq vəziyyətin son dərəcə mürəkəb olmasından bəhs edilir. Rusiya imperiyasi XVIII əsrin axırlarından etibarən Fransaya qarşı mübarizəyə qoşulmuşdu. Bu mübarizəyə Rusiya ilə birgə İngiltərə, Prussiya və Avstriya imperiyaları da başçılıq edirdi. Həmçinin məqalədə XIX əsrin əvvəllərində beynəlxalq münasibətlərin başlıca məzmunu, bu imperiyalar arasında olan rəqabət və mübarizə göstərilir.

Açar sözlər: tarix, diplomatiya, Rusiya, xarici siyasət

Tarixən ekspansionist siyasət həyata keçirməsi ilə seçilən Rusiyanın xarici siyasətinin müxtəlif məqamları həmişə maraq doğurmuşdur və onlar müxtəlif aspektlərdən öz tədqiqini tələb edir. Belə maraq doğuran məsələlərdən biri də XIX əsrin əvvəllərində Rusiyanın həyata keçirdiyi xarici siyasətlə əlaqədar idi.

XIX əsrin əvvəllərində Avropada beynəlxalq vəziyyət xeyli gərgin idi. XIX əsrin I yarısında siyasətin ardıcıl olmamağı sosial-iqtisadi vəziyyətin, feodal sisteminin və yeni burjua münasibətləri ilə izah olunurdu.

Xarici siyasətin I hissəsini Qərbçilik adlandırmaq olar (1801-1815). Bu, bir tərəfdən Avropada Napoleon işğalı, digər tərəfdən isə çarizmin öz qayda-qanunlarını bərpa etməklə bağlı idi. Rusiyanın Napoleon işğalına qarşı mübarizəsi onu Avropanın antifransız koalisiyasına qoşulmağa vadar etdi.

XIX əsrin əvvəllərində beynəlxalq vəziyyət iki nəhəng dövlətin – İngiltərə və Fransanın Avropa üzərində hökmranlıq üçün gedən mübarizəsində müəyyən olunurdu. İndi məlum oldu ki, ingilis-fransız mübarizəsi ümumavropa əhəmiyyəti almış və İngiltərə məğlub olarsa, Fransa işğalı mərkəzi, Cənubi və Şərqi Avropaya qarşı yönəldəcəkdir. Bu zaman Rusiya İngiltərə ilə mübarizədə idi, bu da Fransanı ümumdünya hökmranlığına gətirməyə kömək edir və Rusiyanı zəiflədirdi (2, 97).

Bu müddətdə Rusiya imperatoru I Pavel Fransanın Avropanı işğal

etməyini təmin edir və hərbi diktaturanın köməyi ilə inqilabı darmadağın etməklə Yaxın Şərqdə azad hərəkət etməyə can atırdı. Bu Pavelin xarici siyasətinin səhv olmasını bildirir və Rusiyanı İngiltərə, Avstriya və Prussiya kimi nəhəng dövlətlərə qarşı qoyurdu. Rusiya imperatoru I Aleksandr isə hakimiyyətinin birinci ilindən yeni xarici siyasət proqramı ilə çıxış edərək Napoleonu siyasi müqavilələrlə susdurmaq istəyir. Yeni tipli müqaviləyə əsasən Fransa bir tərəfdən, nəhəng dövlətlərin ittifaqı isə digər tərəfdən çıxış etməli idilər. Rusiyaya lazım olan vaxtda antifransız koalisiyasına imkan yaratmaq üçün sülh müqavilələri lazım idi. Bunun üçün Fransa ilə danışıqları yekunlaşdırmaq, Avstriya və Prussiya ilə sülh müqaviləsi imzalamaq və nəhayət, İngiltərə ilə diplomatik əlaqələrə girmək lazım idi.

Avropada İngilis-Rus (III koalisiya) və Rus-Prussiya (IV koalisiya) ideyalarının yaranmasını təsadüfi hal kimi qeyd etmək olmaz. Yeni sahələrin bölüşdürülməsində əsas kurs saxlanılmışdır və I Aleksandr öz hakimiyyətinin Şimalda (Finlandiya), cənubda (Balotsk vilayəti) və qərbdə (şərqi Qalitsiya) saxlanılması məsələsindən də yan keçməmişdir.

Rusiya çalışırdı ki, İngiltərə ilə əlaqələri tezliklə tənzimləsin, çünki ingilis gəmiləri Zunddan keçərək Baltik dənizindən Kopenhageni bombardman etmişdir. Tezliklə 6 mayda ingilis mallarının daşınması dayandırıldı və 1801-ci ildə 5 iyunda Peterburqda ingilis-rus dəniz konvensiyası imzalandı. Bu konvensiya İngilis-Rus əlaqələrinin aydınlaşdırılması xarakteri daşıyırdı (1, 112).

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində ingilis diplomatiyası Fransaya qarşı mübarizədə təkbaşına hərəkət etmirdi, antifransız koalisiyasının tərkibində onun müttəfiqləri ona silah, pul, hərbi gəmilərlə köməklik edirdilər.

XIX əsrin əvvəllərində Rusiya əsasən qərb (Polşa-Litva) və cənub torpaqları ilə maraqlanmağa başladı. Bu yeni sərhədlər beynəlxalq sazişdə təsdiq olunmuşdu. Rus diplomatiyasının əsas məqsədi ondan ibarət idi ki, bu sazişi müvəqqəti saxlasın. İngiltərə və Fransa bu sazişə açıq müdaxilə etmədilər və öz hərbi gücləri ilə onları qorxutmurdular. Rus-İngilis müqaviləsi bağlandıqdan sonra I Aleksandr atasi Pavelin fransızlarla bağladığı diplomatik əlaqələri davam etdirdi (3, 201).

1801-ci il 26 sentyabrda Rusiya ilə Fransa arasında sülh müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən sülhün qorunması hər 2 dövlətin borcu idi. Rusiya ilə Fransa arasında əvvəlki ticarət əlaqələri təsdiqləndi. 28 sentyabrda isə onlar arasında düşmən dövlətlərin əleyhinə çevrilmiş məxvi saziş imzalandı.

Rusiya ilə Fransa arasında bağlanmış sazişin I bəndinə əsasən Reynin sol sahilinin Fransaya keçməsi ilə əlaqədar olaraq Almaniya müavinəti məsələsi öz əksini tapırdı.

Əgər əvvəllər Napoleonun fikrincə, rus diplomatiyası irəli gedirdisə və Fransa qabaqcılları Avropa rayonlarına nəzəri artırırdısa, yaxın gələcəkdə Yaxın Şərq məsələsi öz qüvvəsini saxlamış olurdu.

Bu planın tamamlanması üçün "potensial Avstriya və Prussiya koalisiyasının bölgüyə daxil edilməsi çətinləşirdi, bu da Napoleonun Mərkəzi Avro-

pada nüfuzunun artması ilə əlaqədar idi.

Rusiya ilə Fransa arasında bağlanan sazişə əsasən Rusiya Mərkəzi Avropadakı işlərə qarışa bilməzdi. Rusiyanı Fransaya yaxınlaşdıran və əksinə, İngiltərədən uzaqlaşdıran yeganə məsələ Yaxın Şərq məsələsi idi ki, burada da Napoleonun Türkiyədə apardığı siyasət Rusiya üçün əlverişli addım atmağa imkan vermirdi.

1804-cü ildə Serbiyada serblərin üsyanı zamanı Serbiya hökuməti bildirdi ki, Rusiya ilə Fransa arasındakı əlaqələrin xarakterinə görə, Türkiyə üzərindəki hər hansı bir hökmranlıq Yaxın Şərq məsələsinə müdaxiləyə imkan vermirdi.

1801-1803-cü ildə olan sülh fasilələri Rusiyanın xarici siyasətinin müəyyən edilməsinə imkan yaratdı. Buradan 2 nöqteyi-nəzər yaranır; Birincilər Fransadakı daxili-siyasi dəyişmələrə qiymət verərək onunla ittifaqı üstün tuturdular; İkincilər Avropada bərabərliyi müdafiə etmək üçün – İngiltərə ilə Fransa, Avstriya ilə Prussiya-ümumiyyətlə, Avropa dövlətlərinin bərabərhüquqlu olub, əksinə Şərqə kəskin siyasətlə müdaxilə etməsini təklif edirdilər.

Digər cərəyanın nümayəndələri Napoleonun dövlət çevrilişi ilə inqilabı boğmasını ya görmür, ya da görmək istəmirlər. Onlar Rusiya ilə İngiltərənin birlikdə Fransaya qarşı silahlı mübarizə etmək prinsipini üstün tuturdular. (12, 357)

I Aleksandrın dövründə Rusiya-Türkiyə münasibətlərindəki əsas cəhətlərdən biri Rusiyanın Türkiyəni qorumaq və gərginliyi aradan qaldırmaqla bu münasibətlərdəki gərginliyi də aradan qaldırmaq idi (6, 18).

II koalisiyanın dağılması ərəfəsindən sülhün tam bərqərar olmasına qədər (1801-1802) olan vaxt Aralıq dənizi hövzəsində Rusiyanın yeritdiyi siyasətə keçid dövrü idi.

Əgər Mərkəzi Avropada Fransaya qarşı hücuma İngiltərə Rusiyanı cəlb edirdisə, Rusiya öz növbəsində Şərq məsələsində rus-ingilis birgə aksiyasını irəli sürürdü. Artıq İngiltərə-Rusiya münasibətlərində 2 cərəyan meydana gəlir: hər iki rəqib dövlətin Aralıq dənizi hövzəsində birgə əməkdaşlığı və Napoleon Fransasına qarşı birgə mübarizə tərəfdarları.

1802-ci ilin axırında Rus-Fransa münasibətlərində soyuqluq yarandı. Rusiya hökuməti səylə Sordiniya krallığından Neapol və İsveçrənin fransız ordusundan azad edilməsini tələb edirdi və Bonapartın işğalçılıq aktını tanımağı rədd edirdi.

Artıq 1802-ci ilin iyulundan Rusiya Malta məsələsinə müdaxilə etmək siyasətindən uzaqlaşırdı. Hələ 1801-ci ildə İngiltərə təklif edirdi ki, adanın müstəqilliyinə söz verir, hətta ora rus qoşunlarının gətirilməsini təklif edirdi.

Lakin İngiltərənin bu təklifi 3 məsələyə görə nəzərə alınmadı:

1) məqsədəuyğun olmayan maliyyə və insan çatışmazlığı;
2) Fransa ilə münaqişənin arzuolunmazlığı;
3) ingilis-fransız münaqişəsini yaratmamaq arzusu.

1801-ci ilin oktyabrından və 1802-ci ilin oktyabrına kimi Rusiya Dövlət

Soveti və Nazirlər Kabineti 6 dəfə Malta məsələsini müzakirə etdilər. Rusiyaya müraciət edərkən İngiltərə Fransaya qarşı rus-ingilis ittifaqının yaradılması üçün əsas axtarırdı. "Azad əl" siyasətinə əsasən Rusiya İngiltərəyə öz etirazını bildirdi. A.R.Vorontsovun İngiltərə səfiri Uorrena göndərdiyi 1803-cü il 9 mart tarixli etiraz notasında aşağıdakıları qeyd edirdi:

1) Rusiya Maltaya görə ingilis-fransız münasibətlərini sülh yolu ilə həll etmək istəyir;

2) ingilis-fransız razılaşmasına əsasən Malta statusu məsələsinə Rusiya zəmanət verirdi;

3) ingilis-rus konvensiyasının sonunda Türkiyə və Neopolitan krallığına əvvəlki kimi zəmanət vermirdi (7, 42).

1803-cü ilin yazında Fransa ilə İngiltərə arasında yenidən bərpa olunan hərbi əməliyyatlar əsasən müstəmləkə bazarlarına doğru aparan dəniz yolları üzərində davam edir. Müttəfiqlər barədə Rusiyaya təkliflər Fransa tərəfindən edilsə də, nəticəsi olmurdu.

1802-ci il 16 sentyabrda Rusiya Senatının verdiyi qərar 1787-ci il rus-fransız ticarət müqaviləsinin yenidən qüvvəyə minməsi barədə idi. Beləliklə, 1802-ci ildə Fransa tacirləri formal olaraq ingilis tacirləri ilə bərabər hüquqa malik olurlar. Qara dənizdə Fransa tacirləri üstünlük əldə edirlər. Beynəlxalq vəziyyətin kəskinləşməsi Yaxın Şərqdə özünəməxsus ingilis-rus cəbhəsinin formalaşması prosesini sürətləndirir (9, 226).

I Aleksandr hökuməti hələ nə hərbi, nə də diplomatik cəhətdən hazırlığı başa çatdırmamışdı. Fəaliyyətsiz dayanmaq mümkün deyildi.

Artıq Rusiya-Fransa konfliktində Aralıq dənizi problemi ön plana keçir. 1803-cü il iyun ayında Fransa İonik adalarına və Materik Yunanıstanına hücum təhlükəsi yaradır. Rusiya Neapolda neytrallığa riayət etməyi tələb edir. Fransa da cavab tələbləri göndərir. Sentyabr ayında münasibətlər tam kəsilir.

Fransaya qarşı münasibətdə Rusiyanın gələcək xarici siyasətinin müəyyən edilməsində iki nöqteyi-nəzərin yeni toqquşması 1804-cü ilin aprelində Dövlət Şurasının müşavirəsində baş verir. Burada söhbət genişlənməkdə olan İngiltərə-Fransa müharibəsi ilə əlaqədar Rusiyanın yeni xarici siyasət kursundan və Fransanın Balkanlara, Yaxın Şərqə, İtaliyaya, Yunanıstana artan iddialarından gedirdi.

Bundan başqa, Rusiya Fransa ilə ümumi sərhədlərə malik deyildi, ona görə Mərkəzi Avropa ölkələri ilə razılığa gəlməlidir. Bu şəraitdə Rusiya üçün Prussiya və Avstriya ilə ittifaq vacib idi. Rus diplomatlarının nəzəri məhz həmin tərəfə yönəlirdi.

Prussiya ilə hələ 1804-cü ilin mayında Rusiya ilə Fransanın şimali Qara dəniz mülklərinə iddiası meydana çıxarsa, qarşılıqlı kömək barədə müqavilə imzalayar.

Lakin Prussiya digər tərəfdən həmin ilin iyun ayında Fransa ilə müqavilə imzalayır ki, bu müqaviləyə əsasən Fransaya qarşı öz ərazisindən qoşun keçməsinə icazə verməyəcəkdi. İndi Rusiya Prussiyanın qarşısında Fransa ilə bü-

tün münasibətləri kəsmək və koalisiyaya daxil olmaq məsələsini qoyur. Prussiya və Avstriya eyni zamanda Napoleonla ittifaqı saxlamağa çalışırdılar. III Fridrix-Vilhelm bildirdi ki, Prussiya Napoleonun hücumuna birinci məruz qalacaq. Rusiyanın və Avstriyanın köməyinə III Fridrix-Vilhelm ümid etmir, ingilislərin köməyinə isə heç inanmırdı (1,198).

Rusiyanın koalisiyaya daxil olmaq haqqındakı təklifinə Prussiya cavab verir ki, Avstriyasız koalisiyaya daxil olmaq fikrində deyildir. Avstriya da eyni zamanda bildirdi ki, Prussiyanın koalisiyaya birinci daxil olmasını gözləyir. Nəhayət, 1804-cü il 25 oktyabrda Rusiya Avstriya ilə müttəfiqlik barədə müqavilə bağlamağa nail olur. Lakin bu müqavilə qeyri-müəyyən xarakter daşıyırdı. Müqavilə yalnız Fransanın həmin sənədləri imzalayan tərəflərə hücum edəcəyi zaman Avstriyanın hərbi fəaliyyətini nəzərdə tuturdu. Elə 1804-cü ildə Rusiya Danimarka ilə müdafiə xarakterli müqavilə imzalayır. İngiltərə və Rusiya arasında Fransaya qarşı birgə hərəkət barədə müqavilə 1805-ci il 30 martda bağlanır. İngiltərə ilə ittifaq Rusiyanı yalnız maddi cəhətdən təmin edirdi. İngilis hökuməti düşmənə qarşı müharibə üçün qoşun vermək istəmirdi (11, 167).

Avstriya ilə müqavilənin əksinə olaraq ingilis-rus müqaviləsi Fransanın hücum edəcəyi zaman hərbi əməliyyatların başlanmasını nəzərdə tuturdu.

Fransa təcavüzünə qarşı daha bir addım Avstriyanın ingilis-rus ittifaqına daxil olmağa məcbur etmək zərurəti idi. Yalnız 1805-ci ilin martında Napoleonun İtaliya kralı elan edilməsi Genuya və Luknini işğal etməsi və Avstriya hökumətini Fransa ilə əlaqədən imtina etməyə və 1805-ci ilin avqustunda rus-ingilis ittifaqında birləşməyə məcbur edir.

Hələ bir qədər əvvəl 1805-ci ilin yanvarında Rusiya Napoleona qarşı İsveçrəni də dəvət edir və İsveçrənin təhlükəsizliyini təmin edir.

1805-ci ilin sentyabrında Napoleona qarşı yönəldilmiş planlarından narahat olan Türkiyə Rusiya ilə saziş imzaladı. Bu sazişə görə hər iki tərəf Qara dəniz hövzəsinin qorunması üçün məsuliyyət daşıyırdı. Türkiyənin koalisiyaya birləşməsi rus diplomatiyasının qələbəsi idi. Bununla da III Antinapoleon koalisiyası yarandı.

Napoleon Prussiyaya Qannoveri vəd etdi. Prussiya hökuməti onu Fransa və müttəfiqlərinin hücumlarından qoruya biləcək ikitərəfli siyasət yeritməyə çalışırdı.

Beləliklə, müttəfiqlər Fransa ilə müharibəyə başladılar və bu müharibəni Prussiyasız sona yetirdilər. Müttəfiqlər müharibəyə pis hazırlaşmışdılar, Avstriya ordusunun qüvvəsi isə tükənmişdi. Ən yaxşı Avstriya korpusu Fransa tərəfindən zəbt olunmuş torpaqları qaytarmaq üçün Şimali İtaliyaya göndərilmişdi. Digər hərbi hissə İsveçrədə yerləşirdi. General Makanın komandanlığı altında olan III qrup isə Bavariyanı tutmaqla məşğul idi və Ulma rayonunda yerləşirdi (4, 311).

Napoleonun İngiltərə ərazisinə hücum planından imtina etməsi müharibəyə qoşulan Rusiya üçün əlverişli deyildi. Qeyd etmək lazımdır ki, rus ordusu öz müttəfiqinə köməyinə gələndə artıq Avstriya ordusu süquta uğramışdı.

Avstriyalılar 1805-ci il oktyabr ayında Ulma yaxınlığında məğlub olmuşdular.

Buna baxmayaraq, 1805-ci il 30 oktyabrda Kremsom şəhəri yaxınlığındakı vuruşda ruslar bütün fransız korpusunu darmadağın etdilər.

Müttəfiqlər ordusunun hücumu 1805-ci ilin 20 noyabrında başlandı. Müttəfiq orduları yavaş-yavaş irəliləyirdi və 3 gündən sonra Vyananın 120 km şimalında Austerlits kəndinin qərbində yerləşən Pratsen yüksəkliyindəki mövqeyini möhkəmlətdilər.

I Aleksandrın göstərişi ilə bu yüksəkliyin alınması ləğv olundu və fransızlar müqavimətsiz onu ələ keçirdilər. Bu zaman vəziyyət kəskin şəkildə dəyişdi. "Onların döyüşü rus qoşunlarının hücumu ilə başladığı halda, indi ayrı-ayrı müdafiə epizodu xarakteri daşıyırdı".

Austerlits döyüşündə müttəfiqlərin 27 minə yaxın adamı həlak oldu və əsir düşdü. Bu döyüş rus ordusunun və Prussiya taktikasının məğlubiyyəti kimi qələmə verilə bilər. I Aleksandr bütün məğlubiyyətdə Kutuzovu günahlandıraraq onu ordudan kənarlaşdırır və Kiyevə qubernator təyin edir (8, 338).

Austerlits döyüşü Napoleonun adını ucaltmaq üçün gözəl vasitə oldu və qüvvələrin bərabərsizliyi baş verdi. Avstriya Fransanın rəqibi kimi sıradan çıxdı; Prussiya isə bu döyüşdən sonra Napoleonla qoruyucu müqavilə bağladı və Prussiya bunun üçün Qannoveri alır. 1805-ci il 26 dekabrda Presburqda Fransa-Avstriya müqaviləsi imzalandı, bu müqaviləyə əsasən Avstriya faktiki olaraq İtaliya və Almaniya ittifaqından çıxarıldı. Bunun nəticəsində də Habsburq imperiyasına daxil olan əhalinin 1/6-ni itirdi. Avstriya hökuməti Napoleonu İtaliya kralı kimi tanıdı. Tezliklə Presburq sülh müqaviləsindən sonra 1806-cı ildə birinci Müqəddəs Roma imperatorluğunun imperatoru titulundan imtina etdi. Beləliklə, Rusiya tərəfi müttəfiqsiz qaldı. III koalisiya dağıldı.

Beləliklə, çarizmin siyasəti 1805-ci ildə Austerlits faciəsi ilə başa çatdı. III Antifransız koalisiyası dağıldı (2, 309).

Napoleonun rəhbərliyi altında 16 alman dövləti Reyn ittifaqını yaratdı. Reyn ittifaqının yaradılması alman dövlətlərinin birləşməsinə zəmin yaratdığından, bu, Prussiya üçün güclü zərbə idi. Fransa imperatoru Qərbi və Mərkəzi Avropanın hakiminə çevrilir. Napoleonun ordusu Yaxın Şərqdə möhkəmlənir. Osmanlı sultanı Fransanın düşməni olduğu halda, indi artıq Napoleonun tərəfdarına çevrilir.

Avstriya işğal edildikdən sonra Rusiya xarici siyasət kursunu təzədən neytral Prussiya və Fransaya qarşı yönəldir. I Aleksandr 1806-cı ilin yanvarında Dövlət Sovetinin yeni iclasını çağırır.

İclasın gedişində Rusiyanın Fransaya qarşı siyasətində 3 cəhəti əsas götürülmüşdür. Hələ əvvəlki 2 metodda olduğu kimi – yəni "ingilis-fin siyasəti" və "azad əllər" siyasətində heç bir təzəlik yox idi.

III yeni metodla Kurakin çıxış edirdi. O, belə nəticəyə gəlir ki, III koalisiya əvvəlki hissədə olduğu kimi daimiləşir. Avstriya isə oyundan artıq çoxdan çıxmışdır. Avstriyanın işğalı Prussiyanın səlahiyyətini gücləndirir, ancaq sonrakı gedişində ittifaq Prussiyanın qoruyucusu ola bilər, ona görə ki, Prussiya

Fransadan qorxurdu. Napoleon onunla müharibəyə başladıqdan sonra Prussiya ona müharibə elan edə bilərdi. Bu ittifaqı Danimarka və İsveçrə ilə də bağlamaq lazım idi.

İngilis-rus əlaqələrinə Kurakin yenidən baxır. Kurakinə görə Fransaya qarşı İngiltərə ilə əlaqəni kəsmək lazımdır, ingilis-rus ittifaqı isə saxlanmalıdır (4, 312).

1806-cı ilin əvvəllərində Fransa Rusiya ilə separat müqavilə bağlamağa çalışır, ancaq Rusiya onu sülh danışıqlarına çəkirdi. 1806-cı il 6 iyulda Rus nümayəndəsi Ubri Parisə yola düşür. Burada məlum olur ki, Rusiyanın sülh müqaviləsini qoruyub saxlamaq üçün heç bir ümidi yoxdur. Fransa ilə sülh ancaq bu təkliflərlə ola bilərdi:

I. Korfu adasında hərbi-dəniz bazasının saxlanılması və İonik arxipelaqında nəzarət.

II. Bütöv, yaxud hissə-hissə fransız sərhədlərinin Dalmasiyadan evakulyasiyası.

III. İtaliya və Osmanlı imperiyası arasında bir, yaxud bir neçə azad dövlət yaratmalı.

Fransız diplomatiyası artıq Austerlisdə qalib gəlmişdir və Avstriya ilə sülh danışıqları aparmaq ona asan idi. 1806-cı il 20 iyulda fransız-rus sülh müqaviləsi imzalanır. Bu müqaviləyə görə Rusiya Neopolitan və Sardiniya krallığına, həmçinin alman dövlətlərinə başçılıq etmək səlahiyyətini itirirdi. Napoleon isə 3 ay müddətində öz ordusunu Almaniya ərazisindən çıxartmağa söz verir.

Rus-fransız müqaviləsi I Aleksandr üçün indi heç bir maraq oyatmırdı. İndi Peterburq üçün əsas məsələ Prussiya və Türkiyə ilə əlaqə yaratmaq idi.

1806-cı ildə Prussiya siyasəti fransız və rus diplomatiyası üçün birinci nəticə olmuşdur.

"Rusiya üçün Prussiyanın bir dövlət kimi qorunması və rus-pruss əlaqələrinin yaranması onun Almaniyanın işlərinə qarışmasını, Balkan ticarətini qoruyub saxlamağı və ən əsası da Napoleonun Rusiyaya müharibə elan etməsinə mane olmaq demək idi" (11, 168).

1806-cı ilin əvvəlində Fransa Prussiya məsələsində böyük qələbə qazanır. Fransa Prussiyaya söz vermişdir ki, o, ingilis krallığına – Qannoverə Prussiyanın sahib olmasına şərait yaradacaq. 1806-cı il 15 fevralda Prussiya ilə Fransa arasında Prussiya ordusunun Qannoveri tutması haqqında müqavilə imzalandı.

Bu müqavilədən sonra, martda İngiltərə Prussiyaya müharibə elan edərək, öz gəmilərinin Prussiya limanlarına girməyini qadağan etdi və Prussiya gəmilərinə embarqo qoydu. 1806-cı il 12 mayda İsveçrə krallığı Pomeraniyada Prussiyaya dəniz blokadası elan etdi.

Prussiya-Rusiya müqaviləsində ancaq siyasi tərəfi deyil, Rusiya onun iqtisadi tərəfini də götürürdü. İngilis-Pruss müharibəsi Rusiyanın Baltik ticarətinə mənfi təsir göstərirdi.

Lakin sonralar Prussiyanın dövlət başçıları anladılar ki, Fransa onlardan Rusiyaya və İngiltərəyə qarşı oyunda bir "piyada" kimi istifadə etmək istəyir. Bu da Rusiyanı Prussiyaya daha da yaxınlaşdırır. 1806-cı il 1 iyulda rus-pruss müqaviləsini təsdiq edən gizli deklorasiya imzalanmışdır. Prussiya Fransa ilə əlaqədən imtina edərək onunla müharibə aparmaq fikrində idi və İngiltərə ilə barışmaq istəyirdi. I Aleksandr qeyd edirdi ki, ancaq bu müqavilələr IV koalisiyanın əsasını qoymuşdur. Rusiyanın Prussiyaya qarşı yeni müharibəsi Napoleon koalisiyası çərçivəsində baş verməli idi, çünki bunun əsası Rusiya-Prussiya əlaqəsi olmalı idi (9, 381).

1806-cı ilin avqust-sentyabr aylarında Rusiya Prussiyanın rəhbərliyi altında Şimali Atlantika konfransını yaradır. Kiçik alman dövlətləri və Avstriya bu konfransın Rusiyanın başçılığı altında keçirilməsini istəyirdilər, çünki Avstriya daha çox Şimali Atlantika dövlətlərinə Prussiyanın təzyiqinin güclənməsindən qorxurdu.

Rusiya İspaniya ilə yeni antinapoleon koalisiyası yaratmağa çalışırdı.

Diplomatik işlərlə birgə IV koalisiyanın yaranması ilə Rusiyada Fransaya qarşı müharibəyə hazırlıq gedirdi.

Lakin I Aleksandrın hərbi və diplomatik planları Prussiyanın hücumu ilə məhv edildi. 1806-cı il 1 oktyabrda o (Prussiya səfiri) Parisə Taleyrana ultimatum göndərdi: Ultimatum aşağıdakılardan ibarət idi: 1) Fransa öz ordusunu Almaniyadan Reynin arxasına aparmalıydı; 2) O, Prussiyanın başçılığı altında Şimali Almaniya ilə əlaqə yaratmaqdan imtina etməlidir. Napoleon bu ultimatumu rədd edir və Prussiyaya hücum edir.

Müharibənin başlanması Napoleon üçün gözlənilməz deyildi. Oktyabrın əvvəlində Parisdə Rusiyanın Prussiyaya köməyi məsələsinə baxılır. Fransız komandanlığının əsas məqsədi 1806-1807-ci il kompaniyasında bir neçə əsas döyüşdə Polşa və Prussiya ərazisində rus ordusunu məhv etmək və I Aleksandrı Fransa ilə sülh yaratmağa məcbur etmək idi.

Bu səbəbdən bütün hərbi və diplomatik planlarında Napoleon 1806-cı ildə İngiltərə ilə münaqişəni unutdu.

9 noyabr 1806-cı ildə Napoleon Britaniya adalarında blokada elan etdi. İngiltərə ilə müharibə yeni forma – ticarət müharibəsi formasını almışdır. Rusiyanın iqtisadi blokadada iştirak etməməsi bunun keyfiyyətini aşağı salmışdır.

İngiltərə gəmiləri Avropa limanlarına buraxılmırdı. Trafalqda fransız ordusu dağıldıqdan sonra Napoleon bir müddət İngiltərə ilə açıq döyüşdən imtina edir.

1807-ci ilin noyabrında Londonda İngiltərəyə qarşı qərar qəbul edilmişdir. Ancaq bunu Fransa təkbaşına edə bilməz. Ona görə də, Napoleon hələ 1806-cı ildə Rusiyaya qarşı gizli proqramını həyata keçirmək istəyir.

Bu sənəd Fransanın siyasətini təkcə 1806-cı ildə deyil, 1807-1812-ci ilə kimi müəyyən edirdi.

Fransız diplomatiyası Portla, Rusiya və İngiltərə ilə əlaqəni pozur.

Tezliklə Türkiyə Rusiya və İngiltərəyə müharibə elan edir. Fransa hətta

çalışmırdı ki, növbəti şərait üçün Portla belə bir ittifaq bağlasın:

1) Rusiya ilə onun fikri olmadan təkbaşına sülh yaratmamaq;
2) Fransa, əgər Türkiyə təkbaşına bunu bacarmazsa, Krıma sahib olmağa söz verir;
3) Fransa Türkiyəyə Moldaviya və Voloxiyaya sahib olmağa söz verir;
4) Fransa Türkiyə imperiyasının bütövlüyünə söz verir.

Ancaq bütün bu cəhdlərə baxmayaraq Fransa diplomatiyası Türkiyə ilə ittifaq yarada bilməmişdir (12, 446).

İttifaq qoşunlarının Austerlitsdə məğlubiyyətindən sonra Fransanın nüfuzu təkcə Avropada deyil, həmçinin Şərqdə də yüksəlir. Sonra fransız diplomatiyası antirus əməliyyatını İstanbulda gücləndirərək, Osmanlı sultanını əmin edir ki, Rusiya Austerlits döyüşündə çox zəiflədiyindən onun bir daha gücü qalmamışdır. Napoleon Rus-türk müharibəsini qızışdırmaqla Rusiyanı Avropanın işlərindən uzaqlaşdırmaq və bununla da Avropanı ələ almağa çalışırdı. O, Osmanlı sultanına söz verir ki, Krımı və Gürcüstanı Rusiyadan ayırmağa icazə verəcək.

Napoleonun təkidi ilə Osmanlı sultanı Rusiya ilə əlaqələri pozur.

Türkiyə hökuməti rus ticarət gəmilərinin boğazlardan azad keçməsinə icazə vermir və insanları həbs edir, yükləri tutub saxlayırdı. Bütün bunlar Türkiyə ilə müharibəyə şərait yaradırdı.

Rusiyanın vəziyyəti ağır idi. Rusiya üç cəbhədə – Fransa, İran və Türkiyə ilə müharibə apırırdı.

Rus ordusu 1807-ci ilin yanvar-fevral aylarında türklər üzərində bir neçə qələbə çaldı. O, Yassı, Bendera, Akkerman, Qalaz və Buxarest qalalarını almış, Dunay sahillərinə çıxmışdır. Sinyavinin eskadrası şagirdi Uşakovun rəhbərliyi altında türk ordusunu məhv etmiş, Dardaneli mühasirəyə almışdır. Balkan xalqının, əsasən də serblərin ruslara böyük köməyi olmuşdur. 1804-cü ilin yanvarında serblərin milli azadlıq hərəkatı baş vermişdir.

Rus-türk müharibəsi başladıqdan sonra ruslar serblərlə əlaqə qurmağa başlamışlar. General İsayevin rəhbərliyi altında olan dəstə Osmanlı imperiyası üzərində serblərin bir sıra qələbə çalmasına nail olmuşdur. Osmanlı sultanı Serbiya ilə barışmalı olur və serblərə muxtariyyət verir (2, 257).

1807-ci ilin yayında Rusiya Dunaydan türklərin qarşısını almışdır. Qara dənizdə ruslar Anapa qalasını zəbt etmişlər.

1807-ci il 2 iyunda Fridlandda baş verən döyüş müharibənin nəticəsini həll etdi. Napoleon Qərbdə müharibənin uzun çəkəcəyini gördükdə Rusiya ilə danışıqlar yolu axtarmağa başlayır.

Artıq 1807-ci ilin yanvarında Prussiya diplomatları rus-fransız sülh danışıqlarına başlamağa razılıq verirlər. Rusiya hökuməti İngiltərənin və Prussiyanın iştirakı ilə bu danışıqlara razılıq verdilər. Ancaq Napoleonun məqsədi antinapoleon koalisiyasını dağıtmaq olduğundan bu danışıqlar heç bir nəticə vermədi.

1807-ci il 28 apreldə Bartenşteyndə I Aleksandr ilə Prussiya kralı ara-

sında gizli müqavilə imzalanır. Bu müqaviləyə əsasən VI koalisiyanın Napoleona qarşı həlledici döyüşü olmalı idi.

Fransanın Almaniyadan Reynin arxasına qovulması məsələsi Şimali Almaniya konfransında (Prussiyanın başçılığı ilə) I Aleksandrı, İsveçrəni, İngiltərəni və Avstriyanı özünə çəkmək idi. Lakin 1807-ci ilin payızındakı millətlər arasındakı vəziyyət Fransaya qarşı bu planın gedişini dayandırdı.

Ancaq İngiltərə razılıq verməklə elə bir təklif irəli sürdü ki, bu, Prussiyanı onlardan uzaqlaşdıraraq Fransaya birləşdirirdi, eyni zamanda Avstriyanı da özlərindən uzaqlaşdırırdı. Bununla bu plan heç bir nəticə verməmişdir (6, 486).

Rusiyanın 1801-1807-ci ildəki xarici siyasəti bir neçə mərhələdən keçmişdir. Mübahisəli məsələlərin diplomatik surətdə müəyyən edilməsi (1801-ci ildə Paris razılaşmasına əsasən ingilis-rus dənizçilik konvensiyası).

1801-1803-cü illərdə Rusiya "neytral" siyasət mövqeyi tuturdu. İngiltərə və Fransa bir-birinə rəqib mövqedə idilər, Rusiya isə əvvəlcə İngiltərə ilə münasibətləri qaydaya salmışdı. Bütün münasibətlərdə Rusiya ilə İngiltərə arasındakı əlaqələr əlverişli idi. Rusiya-Fransa münasibətləri hersoq Eşenskinin ölümündən sonra daha da pisləşmişdi. Onda çar hökuməti Napoleona etiraz notası göndərir. Napoleon isə notaya kəskin cavab vermişdir. Nəticədə də, Fransa ilə Rusiya arasındakı münasibətlər kəsilir. Fransa səfiri geri göndərilmişdir.

Rusiya və İngiltərənin dövlət başçıları fransız işğalının əleyhinə idilər. Ona görə də, 1805-ci ildə III antifransız koalisiyası yarandı. Onun əsas iştirakçıları Rusiya, İngiltərə və Avstriya idi və onlara Danimarka, Türkiyə və İsveçrə də qoşuldu.

Müttəfiqlər Fransaya qarşı müharibəyə başladılar. Prussiya isə III, ən böyük antifransız koalisiyasına qoşulmadı (1, 204).

8 noyabr 1805-ci ildəki Ulma döyüşündən sonra Avstriya ordusu təslim oldu. Həmçinin 1805-ci ildəki Austerlits yaxınlığındakı döyüşdən sonra rus və Avstriya qoşunları məğlub olmuşdu. Bu döyüşdə Avstriyanın məğlubiyyətindən sonra Rusiya müttəfiqsiz qalır, III koalisiya dağılır. Rusiya Napoleonla sülh danışıqlarına başlayır. Lakin sülh müqaviləsi baş tutmadı. Yeni müharibə yaxınlaşmışdı. Belə bir şəraitdə IV antifransız koalisiyası yarandı. Onun tərkibinə Rusiya, İngiltərə, Prussiya və İsveçrə daxil idi. 1806-1807-ci illərdə yeni koalisiya müharibəsi başladı.

1807-ci il iyunda Napoleon Fridland döyüşündə qələbə çaldıqdan sonra Rusiya qoşunlarını Nemanın arxasına sıxışdırır. Rusiyaya hücum etməyə özünün tam hazır olmadığını gördükdə sülh danışıqlarına başlayır. I Aleksandr da müttəfiqsiz qaldığından müharibəni davam etdirmək istəmir. İngiltərə də ona heç bir yardım göndərmir. Rusiya İngiltərə ilə olan əlaqələrdə Fransa tərəfinə keçir. 1807-ci il iyunun 7-də Tilzitdə sülh müqaviləsi imzalanır. Prussiya Elbadan qərbə olan torpaqlarını itirir. Əvvəllər ələ keçirdiyi Polşa torpaqlarında Varşava hersoqluğu yaranır. Rusiya ingilis-rus danışıqlarını, Fransa isə Rusiya ilə Türkiyə arasındakı sülh müqaviləsini imzalamağı öz üzərlərinə götürürlər. Rusiya üçün çətin şərt kontinental blokadada birləşmək idi. Əsas məqsəd

İngiltərəni xarici ticarət bazarlarından təcrid etmək idi.

Tilzit sülhü müvəqqəti ziddiyyət xarakteri daşıyırdı. Bu sülh Napoleonun əl-qolunu yeni işğallar üçün bağlayırdı (İspaniya, Portuqaliya). I Aleksandrın əsas məqsədi daxili siyasət məsələlərini həll etmək və 1812-ci il müharibəsinə hazırlaşmaq idi.

I Aleksandrın Fransanın əli ilə "Şərqi almaq" cəhdi baş tutmadı. Napoleon isə Rusiyanı İngiltərə və Avstriya ilə fəal müharibəyə cəlb edə bilmədi.

Rusiya Fransanın köməyi ilə İngiltərəyə qarşı mübarizə ilə bərabər öz imperiyasının sərhədlərində işğalçılıq siyasətini davam etdirirdi (Finlandiyanın və Şərqi Qalitsiyanın birləşdirilməsi, Bessarabiya, Moldaviya və Valaxiyanın birləşdirilməsi və s.).

Möhkəmlənmiş kontinental mühasirə şəraitindən imtina etmiş rus hökmranlığının yaratdığı neytral mövqe ingilis-fransız müharibəsində yeni fransız-rus münasibətlərinin qəti kəskinləşməsinə və 1812-ci il müharibəsinə gətirib çıxarırdı. Bu müharibədə Fransa imperatorunun əsas məqsədi rus dövlətini məhv etmək və onun Fransadan asılılığını təmin etmək idi (12, 491).

ƏDƏBİYYAT

1.Байзакова К.И. История международных отношений в новое время, М.: Просвещение, 2007, 463 с.
2.Боханов А.Н., Горинов М.М. История России с начала XVIII до конца XIX веков, Книга II, М.: Аст, 2001, 377 с.
3.Бовыкин В.И. Очерки истории внешней политики России. М.: Наука,1960, 442 с.
4.История дипломатии. М.: Просвещение, 2005, 519 с.
5.История России с древнейших времен до наших дней. Под ред. А.Н.Сахарова. М.: Проспект, 2009, 720 с.
6.История внешней политики России. Первая половина XIX века. М.: Наука, 1985, 499 с.
7.Киняпина Н.С. Внешняя политика России в первой половине XIX в. М.: Наука,1976, 216 с.
8.Лысак И.В. История России с древнейших времен до конца XIX века. Таганрог: 2001, ТРТУ, 360 с.
9.Милов Л., Цимбаев Н. История России XVIII-XIX веков. М.: Просвещение, 2006, 409 с.
10.Павленко Н.И. История России с древнейших времен до 1861 г. М.: Высшая школа, 2004, 371 с.
11.Протопопов А.С. История международных отношений и внешней политики России в 1648-2000 гг. М.: Аспект-пресс, 2001, 344 с.
12.Троицкий Н.А. Россия в XIX веке: Курс лекций. М.: Просвещение,1997, 504 с.

РОССИЙСКАЯ ДИПЛОМАТИЯ В НАЧАЛЕ XIX ВЕКА

А.М.МАМЕДОВА

РЕЗЮМЕ

В статье показаны сложные переплетения и взаимовлияния направлений внешней политики как европейской, так и азиатской. В сферу внимания попадает не только дипломатическая история, но и военный аспект российской политики, государственный

механизм принятия и осуществления внешнеполитических решений. Также проанализированы связи и конкретные внешнеполитические цели и амбиции России, методов и средств их достижения и удовлетворения с менявшимся обликом и самой страны и окружавшего ее мира, с экономическими и политическими интересами различных сословий и групп империи; и наконец, показаны механизмы и реальные плоды воздействия России на исторические судьбы ее соседей на Западе, Востоке и Юге, на мировую политику в целом.

Ключевые слова: история, дипломатия, Россия, внешняя политика

RUSSIAN DIPLOMACY IN EARLY XIX CENTURY

A.M.MAMMADOVA

SUMMARY

The article depicts complicated interlacement and mutual influence of the political strategies in both European and Asian external politics. The diplomatic history of the Russian politics, military aspects, the state mechanism of making decisions in external politics as well as their realization are under the focus. We have analyzed the connections and particular purposes and ambitions of Russia in the external politics of the country, methods and means of their achievement and adaptability to the changes of the country and the surrounding environment, with the economic and political interests of different social estates and groups in the Empire. Finally, the mechanisms and true outcomes of the Russian influence on its neighbours in the East, West and South, as well as the world politics in general are demonstrated.

Key words: history, diplomacy, Russian, external politics